# Yeniyetmələrdə təfəkkürün inkişaf xüsusiyyətləri

**Sveta Nuriyeva**
*ADPU-nun müəllimi*
**E-mail:** sveta.nuriyeva@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. T.S. Paşayev,
psixol.ü.f.d, dos.U.M. Qəzvini

**Açar sözlər:** yeniyetmə, təfəkkür, problem situasiya, mücərrəd, müstəqil, motivasiya, emosiya

**Ключевые слова:** подросток, мышление, проблемная ситуация, абстрактный, самостоятельно, мотивация, эмоция

**Key words:** teenager, thinking, problem situation, abstract, independent, motivation, emotion

Şagirdlərə fikirləşməyi öyrətmək müasir təhsil konsepsiyası baxımından inkişafın psixologiyası və pedaqogikasının aktual problemlərindən biridir. Ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərin idrak fəaliyyətinin sual yönümündə aktivləşdirilməsi sisteminin işlənilməsi mühüm psixoloji, pedaqoji və metodik problem kimi diqqəti daha çox cəlb edir.

İnkişafetdirici təlim prinsipinin bərqərar olması ilə problemli təlimin məktəb təcrübəsində gerçəkləşməsi sahəsində yeni mərhələ əmələ gəldi. Problemlilik inkişafetdirici təlimin başlıca prinsipi sayılır. O mənada ki, problemli təlimin əsas məqsədini öz-özlüyündə "informasiya mübadiləsi", bilik, bacarıq və vərdişlərin verilməsi və mənimsənilməsi deyil, məhz şagirdlərin yaradıcılıq qüvvələrinin inkişafı təşkil edir (V.T.Kudryavsey).

Problemli təlim konsepsiyası üçün təfəkkür mürəkkəb qanunauyğunluqları olan prosesdir. Bu konsepsiyaya görə dərs birtərəfli şəkildə başa düşülən və qiymətləndirilən hafizə qanunları ilə deyil, mürəkkəb çoxcəhətli təfəkkür prosesinin özünün qanunları ilə qurulur. Problemin ayırd edilməsi dərsdə məhz bu kökdə təfəkkürün öz qanunları axarında qəribə fikir məkanı yaradır; şagird axtarır, arayır, yeni olanı kəşf edir, bu prosesdə o, sadəcə olaraq fikirləşmir, onun fikri, təfəkkürü inkişaf edir və tədricən yeni məziyyətlər kəsb edir.

"Təfəkkür sualdan başlayır" - psixologiyada bu deyim müntəxəbat həqiqəti kimi səslənir. Ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərin idrak fəaliyyətinin sual yönümündə aktivləşdirilməsi sisteminin işlənilməsi mühüm psixoloji, pedaqoji və metodik problem kimi diqqəti daha çox cəlb edir. Öyrənilən cisim və hadisələrin strukturu, funksiyaları və səbəbləri nəzəri təfəkkür ölçüləri ilə izah olunanda, şagirdlərdə məntiqi sualların təşəkkülü üçün öz-özünə şərait yaranır. Şagirdlərin dərsdə emosional cəhətdən aktivləşdirilməsi də şagird suallarının formalaşdırılmasının şərtidir. Təfəkkürün inkişafı mühüm bir problemi sistemli həll edəndə, sual məsələsi ilə öz-özünə rastlaşır. Axı, sual bilavasitə təfəkkürün inkişafı, fikrin pərvazlanması məsələsidir. Amerika psixoloqları informasiya mübadiləsi prosesində fikirləşmədən danışmağa başlamamağı, şagirdlərə sual verməyə tələsməməyi, onu mümkün qədər götür-qoy etməyi, öz gücünə həll etməyi məsləhət görürlər. Şagirdlərə nəinki problemi görmək həm də onu sualla formulə etmək, fərziyyələr irəli sürmək mədəniyyəti aşılanmalıdır. Əgər şagird öz-özlüyündə adi sual verirsə, müəllim onun sualını dərhal cavablandırırsa, bu müəllimin böyük pedaqoji səhvidir. Müəllim şagirdi aktivləşdirməli və onun sualını sinifdə məhz özünün araşdırması üçün şərait yaratmalıdır. Şagirdlərə həm də yazılı suallar verməyi,

öz suallarını əsaslandırmağı öyrətmək vacibdir.

Yeniyetmələrdə təfəkkürün inkişafında xüsusilə irəliləyiş baş verir. Onların təfəkkürü kiçik məktəblinin təfəkküründən əsaslı surətdə fərqlənir. Adətən, kiçik məktəblilər əsasən konkret cisimləri müqayisə edir, başlıca olaraq ümumi təsəvvürlərə və məişət anlayışlarına əsaslanırlar. Yeniyetmələr isə anlayışları mənimsəyir və onlara istinad edirlər. Daha çox ümumi hökmlərdən istifadə edir, onların təfəkkürü ən çox mücərrəd xarakter daşımağa başlayır. Bu dövr mücərrəd təfəkkürün inkişafı üçün senzitiv dövr hesab olunur. Yeniyetmələr müstəqil bilik əldə etməkdən, tədqiqatçılıq fəaliyyətindən emosional məmnunluq hissi duyurlar. Düşünmək, müstəqil "kəşflər" etmək onların xoşuna gəlir. Onlar məsələni müxtəlif yollarla həll etmək, müstəqil olaraq misal və məsələ qurmaq sahəsində ciddi müvəffəqiyyətlər qazanırlar. Bununla yanaşı olaraq yeniyetmələr praktiki işlərə, laborator məşğələlərə çox böyük meyl göstərirlər. Cisim və hadisələr arasındakı səbəb və nəticə əlaqələri ilə maraqlanır, müxtəlif fərziyyələr irəli sürür və bu fərziyyələri əsaslandırmağa çalışırlar.

Lakin bəzən yeniyetmələr çox vaxt məsələni tezliklə həll etməyə can atır, hövsələsizlik edirlər, bəzən də öz qüvvələrinə həddən artıq inam yaranır, hər şeyi tez və asanlıqla dərk edə biləcəklərinə arxayın olurlar. Çox vaxt nisbətən çətin məsələ onlara çox asan görünür. Lakin onun öhdəsindən gəlmək üçün heç də kifayət qədər səy göstərmirlər. Bu cür halların yaranması yeniyetmələrin təhsil aldıqları siniflərdə təlimi təşkil etməyi xeyli çətinləşdirir. Dərslər onlar üçün maraqsız, emosional baxımdan cəlbedici olmadıqda, onların təlimə münasibəti dəyişir, maraqları sönür. Rus didaktı Q.S.Şukinanın tədqiqatları göstərmişdir ki, eyni bir sinifdə oxuyan yeniyetmələrin idrak maraqlarında böyük fərqlər nəzərə çarpır Bir qrup yeniyetmələrdə maraqlar amorf xarakter daşıyır, dəyişkənliyi və situativliyi ilə səciyyələnir. Digər qrup yeniyetmələrdə maraqlar geniş tədris fənlərini, bütövlükdə təlim fəaliyyətini əhatə edir. Üçüncü qrup yeniyetmələrdə isə köklü, dominant maraqlar aydın təzahür edir (6,стр.208). Şagirdlərin dərslə maraqlanıb maraqlanmaması nə qədər təəccüblü görünsə də, onun müəllimə münasibətilə bağlıdır, xüsusilə yeniyetməlik dövründə. Yeniyetmə müəllimi sevirsə, onun söz söhbətindən doymur, dərsdə diqqətlə ona qulaq asır, dərslə maraqlanır. Onun üçün sevimli müəllim həm də maraqlı dərs deməkdir. Saygısız müəllimin dərsi isə yeniyetməni cəlb etmir, ona cansıxıcı, darıxdırıcı, maraqsız görünür.

Son zamanlar aparılan tədqiqatlar (A.K.Markova və b.) əsaslı surətdə göstərir ki, marağı şəxsiyyətin motivasiya yönümü ilə eyniləşdirmək olmaz. Onlar müəyyən xüsusiyyətlərlə bir-birindən fərqlənirlər. Şəxsiyyətin motivasiya yönümü marağın əsasını, mənbəyini təşkil edir. Maraq isə mürəkkəb motivasiya yönümünün nəticəsi, onun inteqral təzahürlərindən biri kimi özünü göstərir (4, 91). Məktəb təcrübəsində bu faktları empirik surətdə "kəşf " etmiş müəllimlər az deyil. Belə müəllimlərdən biri məktəbdə biologiya fənnini tədris eləyən Zərifə müəllimə öz şagirdlərində təlim motivasiyasını, ilk növbədə daxili motivasiyanı formalaşdıra bilmiş, onlarda təlimə qarşı böyük maraq oyatmışdı. Zərifə müəllimə sinifdə "çətin" uşaq sayılan VII sinif şagirdi Mahirin evdə müxtəlif növdə quşlar saxladığını eşitmişdi. Hətta bir dəfə onun evin damından quş uçurtuğunu da görmüşdü. Bir gun Zərifə müəllimə yolda Mahirlə rastlaşanda qəsdən quşlar barədə söhbət saldı. O, Mahirin quşlarla bağlı müəyyən qaydaları bilib-bilməməməsini öyrənmək istəyirdi. Müəllimənin sualları Mahir üçün gözlənilməz oldu, lakin müəllimənin xoş ovqatı onu ürəkləndirdi Mahir səmimi etiraf etdi ki, çoxlu quşları olsa da, onlarla münasibətdə müəyyən qaydaları bilmir, ancaq öyrənmək istəyir. D.Karnegi belə fikir söyləmişdi ki, insana təsir göstərmək üçün onun istəyi haqqında danışasan və həmin istəyə nail olmağın yolunu öyrədəsən. Zərifə müəllimə Mahirin bu istəyindən bacarıqla istifadə etdi. Mahir üçün məktəbə müvafiq kitablar gətirdi. Ona

məsləhətlər verməyə başladı. Mahir quşçuluq elminin əsaslarını maraqla öyrənirdi. Onun biologiya fənninə də artıq münasibəti dəyişmişdi. O dərsə nəinki hazır gəlir, həm də müəllimə sual verir, müxtəlif bioloji məsələləri daha ətraflı öyrənmək istəyirdi. Artıq o biologiya fənnindən "4" və "5" qiymətlər alırdı. Onun başqa fənlərə də münasibəti dəyişmişdi, məktəb həyatında yaxından iştirak edirdi. Məktəbdə Mahirin iştirakı ilə əvvəlcə biologiya dərnəyi, bir qədər sonra isə canlı guşə təşkil etdilər. Mahir Zərifə müəllimənin səyi nəticəsində tanınmaz olmuşdu. Bəlkə də kim bilir Mahir gələcəkdə biologiya sahəsində yaxşı bir mütəxəssis alim kimi yetişəcək.

Bəzən müəllimlər öz problemlərinin axarında qalır, şagidlərdə özünü büruzə verən qabiliyyətləri görsələr də onu vaxtında inkişaf etdirə bilmirlər, onlarda gələcəyin istedadını, alimini görə bilmirlər. Professor Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, "Maraq səriştəli müəllim üçün sözün əsil mənasında Arximed ling idi. O, bu möcüzəli lingin köməyilə uşaq dünyasını məhvərətindən oynada bilər və oynatmalıdir" (2, 302). Təəssüflə qeyd etmək lazımdır ki, müəllimlərin bir qismi maraq effektinin psixoloji mexanizmlərini aça bilmir və tədris situasiyalarında çıxış yolu tapmırlar. Ona görə də məktəbdə bir sıra qabiliyyətli şagirdlərə təsadüf olunur ki, onlar motivasiya çatışmazlığından oxuya bilmirlər.

Yeniyetmə üçün tənqidi təfəkkürün nəzərə çarpacaq dərəcədə inkişafı səciyyəvidir. O, kiçik məktəblidən fərqli olaraq öz rəyini, fikrən bildirməyə çalışır, hər şeyə tənqidi yanaşaraq dərsliyin mətnində və ya müəllimin mühakimələrində "nöqsanlar" görür . Öz-özlüyündə, bu təfəkkürün çox qiymətli keyfiyyətidir və onu inkişaf etdirmək lazımdır. Lakin təlimin tənqidiliyi tənqidi fikirləşməkdən daha çox əsassız yerə şübhələnmək, mübarizə etmək, etiraz etmək, səhv mülahizəni əsaslandırmağa çalışmaq, tərslik etmək istiqamətindən təzahür edirsə, bu cəhətləri təmkinlə aradan qaldirmaq lazımdır.

Azərbaycan psixoloqlarının (prof. Ə.S. Bayramov və b.) tədqiqatları əsaslı surətdə göstərir ki, tənqidi təfəkkür ağlın inteqrativ məziyyətidir. Yaradıcılıq proseslərinin səmərəliliyi bilavasitə bu bənzərsiz keyfiyyətlərlə şərtlənir. (1, 105).

**Məqalənin aktuallığı**. İnkişafetdirici təlim prinsipi şagirdlərin əqli keyfiyyətlərinin inkişafında təlim motivasiyasının gücləndirilməsini aktual problemlərdən biri sayır.

**Məqalənin elmi yeniliyi**. Təlim prosesində inkişafetdirici təlimin psixoloji məzmunu açıqlanmış və yeniyetmələrdə təfəkkürün inkisaf xüsusiyyətləri sistemli səkildə araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən psixologiya fakültələrində, ümumtəhsil müəssisələrində istifadə oluna bilər.

## Ədəbiyyat

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2012.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
3. Psixologiya / M. Məhərrəmovun redaktorluğu ilə. Bakı, 1965.
4. Ильин Е.П. Мотивация и мотивы. Санкт-Петербург, 2000.
5. Крутецкий. Основы педагогической психологии. М., 1972.
6. Щукина Г.И. Проблема познавательного интереса в педагогике. М.: Просвещение, 1971.

**С. Нуриева**

## Особенности развития мышления в подростковом возрасте

## Резюме

В статье рассмотрены особенности развития мышления в подростковом возрасте. Центральным фактором в развитии подростка являются изменения, происходящие в его мышлении. Движение мышления подростка характеризуется тем, что интеллект порывает связи с конкретной основой, возникает совершенно новая форма-абстрактное и творческое мышление. В ситуации решения разных задач значительную роль имеет связь мотивации и мышления. В статье рассказывается о глубоком проникновении интереса педагога к процессу обучения и воспитания подростка может добиться формирования у него стойкой положительной мотивации к учению. В статье также рассказывается о связи эмоции и мышления. Так как эмоции не просто влияют на мышление, но являются обязательным его компонентом.

**S. Nuriyeva**

## Development features of thinking in adolescence

## Summary

The article deals with the development of thinking in adolescence. One of the main factors that contributes to the development of teenagers is in thinking with changes connected. The mentality of teens is characterized by an abstract and creative character, rather than comparing with specific subjects. The role of motivation and thinking plays an important role in dealing with different situations. In the article, the less experienced initiative of the experienced teacher speaks about creating a positive motivation and interest in teenage learning. The role of emotions in the development of thinking is expressed and it is shown that emotions are not simply a matter of thinking, but also one of its essential components.

**Redaksiyaya daxil olub:** 06.07.2018